# Baltacı Araz




## Azərbaycanı İstiqlal Qurtaracaq

ABALTACI ARAZ

# Azərbaycanı İstiqlal Qurtarar

**Bitikin adı:**
**Azərbaycanı İstiqlal Qurtarar**

**Yazar: Baltacı Araz**

**Bitik Düzənləyən: Eldar Güneyli**

**Yazı Düzənləən: Həbib Sasanian**

**Qrafist Düzənləyən: Cəfər Ağdərəli**

© Çap eləci də yaymaq haqı yazar yönündən
sərbəst buraxılıbdı

**Suçu**
özgədə yox, özündə ara

Edə bilməsən öz dərdinə çara

**Miniş** verməyəni

minməzlər bala

Dəyişmək istəsən **özündən** başla

**"Dəymə-düşər"**

**olsan başqasın boşla**

## İçindəkilər

Baltacı Araz şairin xatirəsinə............................................ **7**
Qoşarın(Şairin) Həyatı.......................................................... **4**
Baltacı Araz şarirdən çap olan bitiklər ............................ **10**
Milli fəallarımıza üztutu(müraciət)! ................................. **12**
Azərbaycanı istiqlal qurtarar ........................................... **16**

## Qoşarın(Şairin) Həyatı

Baltacı Araz adı ilə tanınan Məhəmməd Məhəmmədəli oğlu 1953-cü il oktyabr ayının 23-də Güney Azərbaycanın Mərənd bölgəsində yerləşən Yuxarı Dizə „Dizəj Olya“ kəndində dünyaya gəlmişdir.

Orta əyitimini(təhsilini) doğma Mərənd şəhərində başa çatdırdıqdan sonra 1975-1979-cü illər arasında İstanbulun Mimar Sinan Gözəl Sanatlar Bilim-yurdunda (Üniversitesində) yüksək əyitim almışdır.

1979–cu ildə ana yurduna döndükdən sonra solçu təşkilatın üyəsi kimi ilk şah rejiminə, sonralar isə İran islam hakimiyyətinə qarşı mubarizə aparıb. Özdəş adna(eyni zamanda) ədəbi çalışmaları ilə də məşğul olmuşdur. Həmin illərdə ilk qoşma-qoşuqları Tehranda yayılan “Yoldaş” dərgisində işıq üzü görmüşdür.

1990-ci ildə ölüm təhlükəsi qarşısında ana yurdu Mərəndi tərk etmək zorundə qalaraq, Almaniyaya sığınaraq siyasi fəaliyyətini burada davam etdirmişdir.

Baltacı Araz öz yazqa(məqalə) ilə şeirlərində pan İrançı Pəhləvi sülaləsi çağı, eləcə də o düşüncənin davamı

olan bugünkü Iran İslam Respublikasında fars soyculuğun(şovinizminin) hegemonluğu ilə basqısı qarşı çıxır. Budunsal milli-dini acımasılığa üzləşmiş (zülmə məryz qalmış) Azərbaycan Türklərinin

problemlərini, Tapdalanmış doğal haqlarını dilə gətirir. O yazdığı yapıdlarında(əsərlərində) Azərbaycanın özgürlük düşüncəsini bilimsəl, düşündəm-düşünbilim(fəlsəfi), yönətkisəl(siyasi), tüzəsəl(hüquqi), ekonomi(iqtisadi), ... əsaslarının nəzəri təhlilini vermişdir.

Şair yaradıcılığında parçalanmış bir ulusun (xalqın) ana yurdundan danışır. Güney ilə Quzey Azərbaycanın bütövləşməsi haqqında düçüncəsini ortaya qoyur.

Şair yazır:

**O tay ilə bu tay vahid bir candır,**
**Adı odlar yurdu Azərbaycandır!**

Şair "O tay, bu tay Vətəndir" adlı yapıtında(əsərində) oxucuya bütöv Azərbaycan ideyasını aşılayır. Millətimizin siyasi eləcə də milli baxımdan şüurlanmasına öz payını verir. O, bu əsərini xalqımızın bütöv Azərbaycan arzusunu, istəyini yansıdan, yurdsevər ürəklərdə isə Bütöv Azərbaycan bayrağını dalğalandıran

Gülüstan poemasının yaradıcısı unudulmaz xalq şairimiz Bəxtiyar Vahabzadəyə sunmuşdur (ithaf etmişdir).

Qoşar Baltacı Arazın ayrıca önəmli yapıtı "**Uyqarlaş**" adlı bitigidir(kitabıdır). Şair bu yapıtında insanları uyqar, mədəni eləcə de çağdaş olmağa, öz haqlarını tanıyıb qorumağa çağırır. O, Azərbaycan Türk budunu İslamın gerici ehkamlarına, irqçi Firdovsisayağı baxışlara uymamağa səsləyir.

Baltacı Arazın qadın haqqında dargörüşlü baxışları, Türk kültürü ilə toplumuna aşılanmış irticaçı habelə geridəgalmış düşüncəni tanıdır. Çağdaş insana yaraşan baxışlarını ortaya qoyur. Onun fikrincə, qadın azadlığı hər ölkədə onun mədəniyyəti ilə insan haqlarını tanımaq ölçüsüdür. Şair deyirdi; "azad ana azad övlad yetişdirər, insansevərliyi habelə özgürlüyü onun ruhuna aşılıyar. Azad ruhlu insan kölə olmaz, kölə etməz, hər zaman öz haqqını arayıb alar. Baltacı Araz ömrünün sonunadək Güney Azərbaycanın özgürlüyü, eləcə də erməni daşnakları yönündən(tərəfindən) işqal olunmuş Qarabağın azadlığı uğrunda qələmi ilə mubarizə aparmışdır. Bu məsələlər haqqında hazırladığı „Təbriz ilə Qarabağımızı kim qurtaracaq?" adlı yapıtında o taylı-bu taylı soydaşlarımızın

ortaq dərdi, işğalda olan torpaqlarımızı düşünmək, birgə çıxış yolu ilə bağlı öz düşüncələrini yazmışdır.

Ürəyi xalqla döyünən şairimiz ömrünün son dəqiqələrində Azərbaycana sunmuş yeni yazqasını yazarkən 2012-ci il iyunun 25-də, səhər saat 5:00 radələrində ürək infarktı geçirərək dünyasını dəyişmişdir. Şair 2012-ci il iyunun 28-də Almanıyanın Münster şəhərindəki Lauheide məzarlığında torpağa tapışırılıb.

Yurdsevər Güney Azərbaycanın istiqlal şairi Baltacı Arazdan aşağıdakı adlı üç əsərlər:
**Uyqarlaş, O tay, bu tay Vətəndir,** və **Azərbaycan abəstəne isteqlal əst** (Fars dilinde) yadigar qalmışdır.

Şair öz barlı yaşamını sevdiyi yurdu ilə ulusunun özgürlüyü yolunda pay vermişdir. Onun əsərləri 2004-cü ildən başlanaraq Azadtribun habelə Solgunaz bilgisunar(internet) sitələrində yayımlanmaqdadır.

Baltacı Arazı yaxından tanııban (tanıdığım) doğma qarındaşı olaraq;

- onun yürdəsevərliyini eləcədə bu yؤlda tam varlığıla dayanmadan yazqacı çaldığını görmüş bırısıım.
- Onu gənc yaşından eləcə də ğurbət ölkədə bütöv Azərbaycan qurulası naminə,

- Şəxəsi yaşamında dünya ləzətini özünə haram etdiyinin tanığı(şahidi) olduğumdan dolayı,

on-bir bəndlik qoşuda Baltacı Araz qoşarın xatirəsinə eləcə də düşüncəsi haqda ürək sözəlrimi sizinlə paylaşıram.

Azərbaycan sevgisilə boya-başa çatdın sən
Budununu[1] sevə-sevə, özgə dilin atdın sən
Böyük-böyük amaclar ürəyində tutdun sən
Yurdumun tutsaqlıqdan özgür olmaq amacın
Fars rasizmin yurdundan kökün qazmaq amacın...

Oxulda özgə dilin, yüklədilər belinə
Dedilər: bundan belə, düşmən ol öz elinə
Vətən oğlu yığarı[1], burda gərək bilinə...

---

[1] *xalqını*

Sən dözmədin bu zülmə, şevonizmi daşladın
Yurdunu qutarmağa, milli yolu başladın

Ana dili gücü ilə, çatdı elmin zirvəyə
Sınmayıb baş əymədin pula, zora kötəyə
Toplumdan nədənləri söküb tökdün eşiyə
Fars dilini öyrəndin farsca düşünmədin sən
Şevonizmin zülmünə susub üşünmədin sən

Oxutdular  fars sevn amaca yol olasan
Fars rasizimin planın çizməyə qul olasan
Asimilə uğrunda, nədənsiz... rol olasan
Sən azadlıq nəğməsin ritmə çəkən tar oldun
Yurdunu qurmaq üçün bir gözəl memar oldun

Əlli səkkiz yaşında bitdi şərəflə ömürün
Sən getdin..., yapıtların[2] parıldayır sanki gün
İndi əl yazıların açır xalqımdan dügün
Milli qurtuluş xalqın istədiyi hədəfdi
Vətənin azadlığı hürriyti şərəfdi

Babəkə bənzər igid, vətən səni haraylar
Butay Baltacı səslər, Araz diyər otaylar

---

[1] *qeyrəti*

[2] *Əsərlərin*

Bitiklərin əlbəəl xalq içində yayılar
Sənin geniş düşüncən özgürlüyə yönəldər
Yayılsa bu düşüncə, gəlişməyi dirçəldər

Bütöv Azərbaycana gedən yolu başladın
Xalqımıza özgürlük diləyini aşıladın
Yazınla, anlayışın şəklini naxışladın
Dedin: “otayla butay ayrılmayan bir-candır
Ləqəbi Odlar Yurdu, adı Azərbaycandır”

Qarabağın işğalın gətirdin sən gündəmə
Bir milyon insan yanır bu həsrətə bu qəmə
İnsafdımı hakimlər baş əyələr bu zülmə
Yazıların oxunub anlanacaq himlərin
Tərbiz ilə Qarabağı qurtaracaq kimlərin?

Uyğarlaşın ey ustad, gördü işıq üzünü
Günəş oldu bu xalqa, ağartdı gündüzünü
Haqq nədir? haqlı kimdir? sən tanıtdın düzünü
İnsanları çağırdın çağdaş aydın olmağa
Öz haqların tanıyıb, zülmün kökün yolmağa

Getdin..., qoçaq igidlər davam edər yolunu
Türkçülüyün tanıtdın, sən sağını solunu
Göstərdin el bağına ziyan vuran dolunu
Bir də doğar analar vətən oğlu nacisin?
Ulusumuz çağırır öz oğlu Baltacısın

Oxulunu bitirdin vətəndə çalışasan
Elin qəm-kədərilə ömürlük alışasan
Yazıb yartmağınla dedin: vətən yaşa sən
Yadigar qoyub getdin, qaldı səndən bir əsər
Oxuyub tanıtmasaq, xalqımız edər zərər.

27.01.2014 Eldar Güneyli

## Baltacı Araz şarirdən çap olan bitiklər

1 – Uyqarlaş! (latin və ərəb Grafikaəlifbasında)
2 – Otay, Butay Vətəndir (latin və ərəb Grafika-əlifbasında)
3 – Aəzrbaycanı İstıqlal Qurtarar! (latin və ərəb Grafika-əlifbasında)
4 – Aəzrbaycan İstıqlala Boyludur”(Azərbaycan abəstəne istiqlal əst, Fars dilində)”

# Milli fəallarımıza üztutu(müraciət)!

Əziz və hörmətli soydaşlarım, bildiyiniz kimi yazıb-sunduğum əsərlərin yazıçısı mən olsam da, bu əsərlərin gerçək sahibləri bugünkü və gələcəkdəki turançı və Bütöv Azərbaycançı soydaşlarımızdırlar. Əlbəttə ki, irtica ilə milli sömürgəçiliyinin kökü qazıldıqdan sonra sunduğum əsərlər dəyərlərini itirib və tarixin müzeyinə göndəriləcəklər. Ancaq tarixin müzeyinə göndərilmədən öncəyədək gündəmdə qalmalıdırlar.

Çünkü düz söz hər zaman üçün düzdür. Arazın hər sözü əskiməz sözdür(köhnəlməz). Yazıçı olaraq milli fəallarımızdan vardır ki, dediklərinə görə Azərbaycanın milli məsələsi haqqında beş yüzdən çox yazı yazıbar. Ancaq sözdə yaxşı yazılarıla jurnalisti yazılar olduqları üçün fotografçıların məhsulları təkin zalıma qarşı məzlumu duyğulandırıb. Milli ruhlarını isə oyadıb və milli mənfəətlərinin doğrultusunda düşünmələrinə yol açıb. Yararlı olduqları qədər hörmət qazana biliblər.
Ancaq jurnalisti yazılar olduqları üçün, yəni siyasəti iqtisadla yox, bəlkə siyasətlə izah etdiklərindən dolayı, o cümlədən niyə istiqlal? Yaxud Niyə federalizm istəyirlər?

Habelə“Qarabağı kim qurtaracaq” kimi milli problemlərimizin haqqında nədən heç bir şey, öyrətməyiblər?

Yəni öyrənməyib və nəticədə öyrətmək üçün də deməyə bir sözləri qalmayıb. O cümlədən, qardaşın yarısı qədər bacıya pay, tarla sayılmış müsavatçı ananın məhsulu atanın olmaq üçün, hakimlik haqqından yoxsun(məhrum) qılınmış qadın öz yazqısını özü yazmamaq üçün, yəni köləliyin donunu dəyişdirən feodalizmin ideolojgiyasını sunmaq üçün (İslam dinini möhtərəm sayan antiqadın erkəklərin ürək sözlərini içərən) quran yazılıbdır.
Yəni deməyiblər quran yazılıb ki, quranın ayrı-seçkiliyinə məruz qalan kölələrlə qadınlar və cəhlin düşmənləri olan aydınlar əzilsinlər.

Kim edər arvadını asılı mal?
(Kim edər əsirini asılı mal? )
Kim edər hər evini bir federal?
(Kim edər sömürgəsini federal?)
Yoxsa qarət ola bilməz beytülmal.

(Milli mədənlərimiz, vergilərimiz, faizlərimiz və ...). Siyasəti iqtisad ilə izah etməkdən qorxan soydaşlar istərlər ki,

1- Dış düşmənlərimizin ölçüləri və metodları ilə milli problemlərimizin çözümünə düşünək.
2- Milli haqlarımızı satmaqla birlikdə, milli inkişafımızın düşmənləri olan feodal yapılı iç düşmənlərimizin ölçüləri və

metodları ilə iç problemlərimizin çözümünə düşünək. Elə ona görə:
Deməzlər ki, bağımsızlıq qurtarar beytülmalı.
Deməzlər ki, quran doğmazdı qadım olmasaydı,
Deməzlər ki;
Quran istər ki, kölə, kölə qala
İstəməz ilkin verilməz haqları ala
İstəməz istiqlal haqqını ala
İstəməz bireysəl haqqını ala.

3- Deyərlər ki, qızıl boşqabda federalizm sunmuş sömürgəçi Rus millәti təkin milli kölələrinə federalizm sunacaq sömürgəçi Fars millətinin don dəyişdirəcək ölçüləri ilə metodları lazımdır bizə (Müftə qanınız var isə buyurun!).Özgələrin kölgəsinə dönüşmək üçün, özgələrdən asılı edən montajçılıq ilə kompradorizm lazımdır bizə. Araz olmasaydı haqqın yanardı hər siyasi özünü xan sanardı verilməyən haqlarını danardı.

Necə ki, kapitalizmi ələşdirmiş Marks sosyalisti devrimə gərəkən ideolojunu sundu, mən də milli-demokratik devrimimizin gerçəkləşməsi üçün tam anlamda milli-demokratik ideoloju sunmuşam:

Hansı çiçəkli bağı gəzməmişəm?
Hansı şanın balını süzməmişəm?
Nəyin haqqında yazı yazmamışam?

Mən sizə ideoloju sunmuşan
Sizdən tənqid ilə yardıcılıq ummuşan.

Məni ələşdirmək istəyən çoxdur
Tez də vardır ki, antitezi yoxdur.

Elə ona görə udub-ata bilməyənlər boğulmağa (susmağa) məhkumdurlar. Siz əzizlərimizdən rica edirəm ki, sizin üçün yazıbsunduğum əsərlərimə sahib çıxasınız. Sahib çıxa bilməniz üçün oyanış mərhələsi boyunca sunduğum əsərlərimin hamısının satılacaq kitablar şəklində və sitələrimizdə yayılaları üçün gərəkən imkanları sağlamaqla birlikdə və yararlı olmaq ilə birlikdə itib-batmasınlar.

Çünkü yazıların içərilərinin dərinlikləri və nitəlikləri baxımından, Baltacı Arazın yazılarının bütünü təkbaşına nə təkcə milli-demokratik devrimi gerçəkləşdirəcək, zehinləri zehinsəl devrimə uğrada biləcək ən bilimsəl, ən doğru, ən güclü öyrətilər tümüdür, bəlkə tarixi zərurətlərin gərəkliyi devrimimizin mükəmməl projəsinin çərçivəsi ilə özünə məxsus özəlliklərini bəlirdən bilimsəl yazılardırlar.
Qızılçı anlayar ki, qızıl nədir
Arazizm qızıl sunan xəzinədir.

Sağ olun!

28.04.2012 Baltacı Araz

# Azərbaycanı istiqlal qurtarar

"Otay-butay vətəndir" adlı kitabımdan çıxartılmış bu özət yazı federalistləri eləcə də sözdə doğruluq, şəffaflıqdan yana olan yalançı federalistləri də tanıdmaq üçün düzəlindi.

1
Suçu özgədə yox, özündə ara
Edə bilməsən öz dərdinə çara
Miniş verməyəni minməzlər bala
Dəyişmək istəsən özündən başla
"Dəymə-düşər" olsan başqasın boşla
2
Hər çalınan saza qardaş oynama!
Hər əridici qazanda qaynama!
Hər baqqalın saqqızını çeynəmə!
Çünkü yanlış fikir ürədənlər var
Həm də milli gücü çürüdənlər var
3
Aydın kəsim toplumun motorudur
Xalqını xəstə edən qoturudur
Qotur yazarı, qotur aktorudur
Aydının da qoturu ölçüb-biçər
Həm də bulağın gözündən su içər
4
İdeoloju bəlli edər haqqı,
Verilməz haqlar birləşdirər xalqı

Çünkü oynada bilməz başqa çalqı
Siyasət ölmüş haqları dirildər (uyqulama)
Hədəf ilə qanunun bəlirtər
5
Bilim araşdırıb-bulmaq üçündür
Bulduqlarından dərs almaq üçündür
Bilikli savaşa dalmaq üçündür
Araz bilikli savaşa dalıbdır
Öyrəndiklərindən düzgün dərs alıbdır
6
Araz qullana bilibdir bilimi
Bulduqları oyadıbdır elimi
Həm də zəginləşdiribdir dilimi
Bilimdir ki, açıbdır düyünləri
Bənzətmə rəzil edib çirkinləri
7
Arazizm tam bilimsəl bir məktəbdir
Bağımsızlığa düşünsəl səbəbdir
Uyqulayanı bilimsəl qəzəbdir[1]
Ən çətin problemləri çözübdür
Cahil insan ona dodaq büzübdür
8
Mən sənə hər sözün düzünü dedim
Nə türdən olduğu gözümü dedim
Kimə qulluq edən özümü dedim

---

[1] sinfi və milli kin

Mən həm irqçi, həm millətçi oğluyam
Demokratizə edən sol qoluyam
(İrq = ırk = soy)

9

Mən çapıldığım üçün yurdsevərəm
Rus ayısevərdi, mən qurdsevərəm
Qarşılıqlı olaraq ... kürdsevərəm
Milli düşmənlərimin düşmanıyam
Milli istiqlalımın qurbanıyam

10

Deyirlər irqçi olmayan ağlayar
Soy qırımı ürəkləri dağlayar
İntiqanını almayan dığlayar
Deyirəm dağlayanı sən də dağla
Daşnaq Ermənininin əl-qolun bağla

11

Deyirlər soyunu unut arama
Pis günlərində dərdinə yarama
O da çarə eyləməyə yarama
Deyirəm Türkün dostu yalnız Türkdür
Bu sözü deyən ATATÜRK böyükdür

12

Deyirlər Türkün gücü birlikdədir
Türk birliyindən doğan dirlikdədir
Türkçülük qanunu yürürlükdədir
Deyirəm Türk gərək Türkə düşünə
Türk birliyi gəlməz Farsın işinə

13
Xalqımın çox azdı milli şüuru
Şüursuz yerdəki su olmaz duru
Ovlanıb-tutulsa yoxdur qusuru
Biliklənmiş olsa azad olacaq
Yoxsa bundan da pis günə qalacaq
14
Doktorlar qurumu xəstəxanada
Siyası önçülər politikada
Tale təyin edərlər hər bir zada
Elimim lin təmsilcisi amaclandırar[1]
Kütlə amacları sonuclandır
15
Lenin Türkə dedi öyrən kəklikdən
Əl çək yurdsevərlik ilə türklükdən
"Sosializm" yaxşıdı milli birlikdən
Fəhlə qılıflıya çaldırdı sazı
Rus soylu sömürgəçi burjuvazı
16
Milli dövləti olmayan dul olar
Yaxılan milli şüuru kül olar
Xalqı sömürgəçilərə qul olar
Çapılan qazancı öz ölkəsində
Yatırılmaz yaşaya kölgəsində

---

[1] *Kütlənin guyruğu yox ki, başı ol!*

17
Tacir sinfi milli haqları satdı[1]
Fars milləti aldı zibilə atdı
Türkün adı yurdu varlığı batdı
Milli haqları alan çalıb-çapar
Satqınını qovan istiqlal tapar
18
Türk soylu tacir satdı Türkü Farsa
Satqın deputat göndərdi məclisə
İranda qalmaq üçün qoya yasa
Türk soylu tacir istər ki, Türk sapa
İranın bazarlarına əl tapa.
19
Hərcayi[2] sərmayələr milli deyil
Yatırılacaq yeri bəlli deyil
Dərdi milli dərdlərin həlli deyil
Çox bazarlı ölkə ona vətəndir
Milli haqları satan iç düşməndir
20
Satqın tacir bazar üçün düşünür
Xalqı isə dərd əlində eşinir
İşsizlikdən Farsistana daşınır
Fars dövləti Azərbaycanı əmir
Türk taciri bağımsızlıq istəmir

---

[1] Alıcıdan öncə satıcı vardır.

[2] *Ticarı sərmayələr*

21
İstiqlala gərəkən güc oyanıb
Sömürgəçinin önündə dayanıb
Sinə gərəni qanına boyanıb
Tacir sinfi böyük bazar istəyir
Umman üçün Türkə Xəzər istəyir
22
Hər millət burjuvazıdan quraşıb
Zalı təkin qansormağa alışıb
Sömürdüyünün canına darışıb
Böyük burjuvazı tacir sinfidir
Sömürgə edən o sinfin kefidir
23
Xalq sömürülür ki, sərmayə ola
Sömürülmüş qanı yurdunda qala
Milli inkişafına çarə qıla
Kiçik burjuvazı çapdırmaz yurdu
Bağımsız edər ki, qoruya ordu.
24
Sağlam millət milli burjuvazıdır
Milli inkişafı ondan razıdır
Razılaşan özü gərçək qazıdır
Feodal yapılı millət satılar
Milli düşmənin səfinə qatılar
25
Tacirin satqınlıq istedadı var
Tacirsevər siyası satıb-sovar
"Əl əli, əldə dönər üzü yuyar"

Satqın Türk Arazı sərhəd tanıyır
Çarın vurduğu yaramız qanıyır
26
Butaylı Tacir sevməyir otayı
Çünkü Farsdan alır satqınlıq payı
Butayın hayı gedib qalıb vayı
Geriçi duvaqlar tapır çölməyə
Taylarımız bütövləşə bilməyə
27
Qeyrətsiz millət cibinə düşünər
Yurdunu satıb lüt kəvirə daşınar
Çapıldığı yurdu dərddən eşinər
Qeyrətsiz millətin yurdu çapılar
Qeyrətləndirməyə çarə tapılar “Axdaran tapar”
28
Geyrətsiz millətə eşşək deyərlər “Türk xər”
Eşşəkin milli haqqını yeyərlər
Tarix yaradan xalqını öyərlər (Qeyrətli Türklər)
Türk xalqı tanımayır millətini
Eşşək adlandığının illətini (səbəbini)
29
Həm yurdumu satır, kölə eyləyir
Həm də öldürtdürür sayğı diləyir!
Türk soylu topdançı yolundan “sapır”
Üç faiz vergi üçün girev yapır
Deməyir Azərbaycanı kim çapır?*

*-Səksən il çapdırıb Azərbaycanı
Üç faiz itirəndə çıxır canı
30
Qurtarın vətəni özünüz üçün
Tacir üçün yox ki, satdırır bu gün
Ki yarın da tuta başqa toy-düyün
Bundan sonra bu haqda yazmalıyıq
Tacir yazdıranları pozmalıyıq
31
İdeolojumuz millətçilikdir
Hədəfimiz milli dövlətçilikdir
Asılı olmaq rəzalətçilikdir
Federalizm özgədən asılı edər
İstiqlal öz tutduğu yolu gedər
32
Devrinçi öz yazqısını yazandır
Reformist öz qəbirini qazandır
İçiboş vədə peşində gəzəndir
Devrinçi Türklər istiqlalçıdılar
Reformist Türklər federalçıdılar
33
Azərbaycanın heç bir şəhərində
Həm başkəndində, həm də Əhərində
Firma yoxdur fabrika təhərində
Bu həddə cinayət edən Fars ilə
Hansı qeyrətli Türk verər əl-ələ?

34
Onda ki istiqlal meydana girər
Sömürgəçi federal haqqı verər
Ki kar baxımından etməyə zərər
Hər siyasətin yarısı gizlidir
Gizləri kəşf edən açıq gözlüdür
35
Fars federalist edər ki, ayrılmaya
Bütövləşdirən körpü qayrılmaya
Şovenist Farsın beli qırılmaya
Federalist bütövlük sözündən qorxar
Qeyrətinin boynunu yerə soxar
36
Federalizm tacirin sinfi yoludur
Tacir sinfi satqınlığın koludur
Satdıran bazarın geni boludur
Federalist milli satqının gülüdür
Federalist də istiqlalçı olacaq
O zaman ki, ərbabı qovulacaq
37
Satqın ortaq milli haqları satar
Ölkənin qazancı paylanar batar
Satqına qazan dibi ancaq çatar
Qoymaz təcrübə dönüşə bilikə
Ki düşək əldən ələ, eyni kökə

38
Fars millǝti Azǝrbaycanı çapır
Hǝm dǝ Türkün alnına yapma yapır
"Çölmǝk dığırlanır duvağın tapır"
Düşmǝni siz sevdirirsiniz xalqa
Ki hǝ deyǝ milli-mǝdǝni haqqa
39
Dövüzsüz millǝtǝ silah satmazlar
Ordusuz xalqın dadına çatmazlar
Bakansız xalqı hǝsaba qatmazlar
Siyası haqqı verǝrlǝr qǝyyuma
Ki milli-mǝdǝni haqq verǝ qövma
40
Mǝrkǝzi banka lazımdır dövüzǝ
Ki ithal-ixrac sorununu çözǝ
Faizlǝri yatıra ölkǝmizǝ
Yaddan asılı olan mǝrki bank
Qoymaz pul basıla, yaxud ala tank
41
BMT-yǝ görǝ qǝyyum çobandı
Çobanın otardığı "gövm" qabandı
Yeri BMT deyil, biyabandı
Çobanın haqqı var sağa, qınaya
Qoyuna qoyunluq haqqı tanıya
42
Federalistin dış bakanlığı olmaz
Çünkü bağımsız xaqanlığı olmaz

BMT üçün orqanlığı olmaz[1]
Qövmə milli-mədəni haqq verərlər
Çox danışsa vurub yerə sərərlər
43
Federalistin mərkəz bankası olmaz
İthalat-ixracat damğası olmaz
... Ağır sənayidən faydası olmaz
Ağır sənayi mərkəzdə qurular[2]
Özgənin gəlişmə gücü burular[3]
44
Federalistin milli ordusu olmaz
Silahsızın dərdinə çarə bulmaz
Qanı tökülməyən saralmaz solmaz
Qılınc gücüylə qanun uyqulanar[4]
Silahsız insan ancaq duyğulanar
45
Federalizmin içində otay yoxdur
Ağır sənaye qurmağa pay yoxdur
Mərkəzə qarşı güç[5] ilə hay[6] yoxdur

---

[1] üyə olma durumu

[2] Rusyada qurulmadımı?

[3] Turanda burulmadımı?

[4] Haqq verilməz, silah ilə alınar.

[5] Milli ordu

[6] Dış işləri bakanlığının hayına verilən hay

Hər millətin mərkəzdə bir səsi var[1]
Satqın səs alanın pul kisəsi var
46
Federal rejimdə fabrika qurmaq,
Federal bütövlüyünü qorumaq,
Xarici siyasətə damğa vurmaq,
Millətlərinə tale təyin etmək   (özgə ~ mərkəz)
Özgənin haqqıdır, vurmayın kitmək (düyün)
47
Meydanda uduzan yoluna salar
Federal məclisdə savaşa dalar
İqtisadı gücü qədər pay alar
Hər ölkədə yatırılmış sərmaya
Bütcəni oranlı böldürər paya
Ki çox çoxala, az yerində saya
Rəqabət qoymaz insaf qanun qoya
48
Neçə ölkəli federal ölkədə
Yoxsul millətlər qalarlar kölgədə
Kirəci rolu oynarlar bölgədə
Ölkələrində nə var qullanarlar
Kirayələr mərkəzə yollanarlar
49
Federalizmə görə mərkəz iyədir
Yoxsul millətin ölkəsi pəyədir

---

[1] Yoxsa meşə qanununa uyacak az nüfuslu millətlərə … yazıqlar olsun!

Mal-davar otarmaq üçün üyədir
Yiyə üyənin göz yaşını silməz
Ayrılmasa sənayeləşə bilməz
50
Hər millət federalizmə bir üyədir
Varlı millət bir növ iti tiyədir
Yoxsul millət kəsiləcək düyədir
Güclü gücsüzə hökumət eyləyər
Özünə "yağar", özgəyə "çiləyər"
51
<u>Federalizm deyər:</u> "Tapan tapanındır"
"Milli Köləlik haqqı sapanındır"
"Yiyəsi ağılsız mal çobanındır"
"Farsın çapdığı Farsa halal olsun"
"Çapılmış soyun saqqalına gülsün"
<u>52</u>
<u>Federalizm deyər:</u> "tapan tapanındır";
Farsistandakılar Farsistanındır
Manufaktorlar Azərbaycanındır
Gərəkməz hər şey hər ölkədə ola
Yetər ki, mal satıla, boşluq dola
53
Sömürgəyə lazım olan sənayi
Farsistanda qurulubdur ənayi
Qoymazlar Turanda qurula tayı
Azərbaycan ayrılsa olmaz hədər
Sənayesi olar Farsistan qədər

54
Federalizm ordusuz dövlətlər qurar
Baş qaldıran dövləti mərkəz vurar
Güclü millət gücsüz milləti burar
Milli güc milli sərvətlərdə yatıb
Çapılmış xalqın milli gücü batıb
55
Federalizmdən güclü çox pay alar
Güclü millət gücsüzü dərdə salar
Baş qaldıranın halvasını çalar
Millətin gücü sərmayəsindədir
Sərmayəninki də qayəsindədir
56
Hər kəs odu öz qabağına deşər
Hər dalğda üstün olmağa əlləşər
Çox millətli məclisdə dava düşər
İqtisadı güclü millət zor deyər
Közü alışdıran kötəyin yeyər
57
Barışmazın barışcil həlli olmaz
Çalacağı havalar bəlli olmaz
Yaddan asılı məclis milli olmaz
Federalizm sömürgəçinin yoludur
Federalist satqın tacirin quludur
58
Federalizm qurtarmaz mülkiyyəti
Bağımsız etməz sümürgə milləti
Qurtarar öncəki hakimiyyəti

Millətlərin dilini azad edər
Yiyəlik payları mərkəzə gedər
59
Neçə millətli federal ölkədə
Ortaq olmayan dil qalar kölgədə
Ortaq dil əridər qeyri özgədə
Çoxunluq ortaq dildə təhsil alar
Çünkü hər ölkəyə getsə iş bular
60
Xəstələnmiş dillərdən vazkeçilər
Yayqınlaşmış dil ortaq dil seçilər
Hakimin xeyrinə ölçüb-biçilər
Muxtariyyətçinin qanı içilər
Fars Türkə pislikdən başqa nə etdi?
Ki Türk ilhaqçının yolunu getdi!
61
Dil haqqı milli-mədəni bir haqdır
Siyası milli haqq milli talaqdır
Yurdunu qurtaran bilikli xalqdır
Qoruyan milli orduyla silahdır
Biliklləndirməmək böyük günahdır
62
Bağımsız yurdun dili azad olar
Talanmadığı üçün abad olar
Yurdsevər milləti, xalqı şad olar
Heç bir dil yurdunu qurtara bilməz
Qoyun çobanını otara bilməz

63
Federalizm rejimlərin cahilidir
Çağdaşlıq baxımından batilidir
Həm də bağımsızlığın qatilidir
Federalizm deyər ki, bölücü öldür
Qatil edən cəhlin seçdiyi yoldur
64
Ən yaxşı federalizm Rusyada idi
İstiqlalçı Türkün canına qıydı
Milli inkişafı yerində saydı
Türkə federalizmdən yetişən pay
Musiqi oldu ki, vaxtı edə zay
65
Federalizmi otay sınamadımı?
Yetmiş il boyunca qınamadımı?
Ayrılanda “burnu” qanamadımı?
Geriçi millətlərin federalizmi
Qoymaz gərçəkləşə istiqlal əzmi
66
İlhaqçı görsə kəsinləşir xətər
Don dəyişdirər ki, etməyə zərər
Federalçı olar ki, içməyə zəhər
Zəhər içirən istiqlalçı olsa
Yenilməz ki, qırx-əlli il də susa
67
Federal İrana düşünən ... Farsdır
İstiqlaçı üçün federalizm pisdir

Çünkü federalizmdən payı ... yasdır
Federalizm bölücü Türkü asdırar
Federalçı Türkün əliylə basdırar
Qanuna uymayana qan qusdurar
68
Farsı federalçı edən şey xeyridir
Məzlumla zalımın yolu ayrıdır
Düşmənsevər Türkün yolu əyridir
Fars şərəfsiz olub Turanı çapa
Türk şərəfsiz olub otaydan qopa
Türk şərəfsiz olub yolundan sapa
69
Fars düşünür ki, Türkü manqurt edə
Ki manqurt Türk, Farsın yolunu gedə
Talaq haqqı istəyən-Türkü ... didə
Mədəni haqq xalqı bağımsız etməz
Yad ordusu yadın dadına yetməz
70
Fars düşünür milli iqtisadına
Əl qoyduğu tarlanın övladına
Ki istiqlal verməyə "arvad"ına
Dava **pul** üçündür, **dil** üçün deyil
Dil yaradmaz talaq haqqına meyil
71
Fars millətini təmsil edən qurum
Qeyri Farsa deyər gəl səni burum
Genə Fars mərkəzli bir rejim qurum

Qapıdan girsən pəncərədən qovum
Öz əlin ilə öz burnunu ovum
72
Hər kəs öz milli xeyrinə düşünür
Azərbaycanlı qeyrinə düşünür
Oyunlarının seyrinə düşünür
Çünkü gah nala, gah da mıxa döyür
Butayı federalizm yolunda qoyur
73
Federalçı bu sonuca varmalıdır
Yoxsul millət davar otarmalıdır
Yoxsa öz yurdunu qurtarmalıdır
İnanmayan otayımızdan sorsun
Maşın qayıra bilmir fabrik qursun
74
Kim istər keçmişindən dərs almaya?
Yəni federalizmi taxtdan salmaya?
İstiqlal üçün savaşa dalmaya?
Rusyanın yetmiş il çapdığı otay
Öz gücü ilə əkə bilməyir ... çay
75
Otayda təhsil dili azad idi
Türk dilində oxuyan el şad idi
Sömürülən milli iqtisad idi
Otayı dil yox, iqtisad ayırdı
Qazancını qorumağa çağırdı

76
Federalist istər ki, iranda qala
Yazqısına özəgədən onay ala
Özəgə onaylayan tütəyı çala
Qoy öz dilində mələsin, sən də sağ!
Yoxsa əlindən çıxar meyvəli bağ.
77
Siyasətin anası iqtisaddır
İqtisadı bağımsız xalq azaddır
Bağımsız xalqın ölkəsi abaddır
Milli iqtisad bağımsızlıq istər
Bağımsız edən yolu xalqa göstər!
78
Biz savaşmasaydıq istiqlal üçün
Vahid Azərbaycan, vahid al üçün
Milli ideoloju, moral üçün
İrançi Türk taktik deyişdirməzdi
Federalizm üçün "sinə gərməzdi"[1]
79
Dünya federalizmin kökünü qazır
Satqın federalizmin xeyrinə yazır
Bəlkə satqın deyil, aldanır azır
Öz əliylə özünə qəbir qazır;
Federal haqq içiboş milli haqdır
Ad mənim, yar özgəninki olmaqdır

[1] Hədəfi irançılıq, taktiki federalizm

80
Federalizm aldadıcı bir oyundur
Özgədən asılı millət qoyundur
Onun yolunda vurulan boyundur
Federalist üçün Tərbiz Tehranındır
“İran-Azərbaycanı” İranındır
81
Federalizm istəyən Türk irançıdır
Azərbaycançı deyil, yalançıdır
Türkmənçayçıdır, gülistançıdır
İranda hüküm sürən çar soyunun
Oyuncusudur, irançı oyunun
82
Bütöv İran istəyən irançıdır
İrançı Türk otaya yabancıdır
İstiqlalçı Türk azərbaycançıdır
Federalizm irançı Türkün yoludur
Federalist paniranistin guludur
83
Budur irançılığın öz anlamı
Ki qalam ilhaqçı Farsın ğulamı
Qurtara bilməyəm öz el-obamı
Həm də inkar edəm Azərbaycanı
Ki üç yerə bölünüb vahid canı
84
Federalist, satqın Türkü təmsil edər
O Türkü ki, Farsın yolunu gedər
Farsın yolunu getməyəni didər (zamanında)

Satqın Türk, Türkün satqın taciridir
Satdığı Türk, Farsın “müstəcir”idir
85
Satqın problemi kökündən çözməz
Ağası sevməyən yazqını yazmaz
Ağasının getdiyi yoldan azmaz
Satqın ağası verən haqqı alar
Çünkü reform devrimi geri salar
86
Federalist bağımlılığı pisləməz
İqtisadi bağımsızlıq istəməz
Yəni bağımsız olmağa səsləməz:*
Qövmə verilən haqq millətə yetməz[1]
Dil haqqı ölkəni bağımsız etməz
Yad ordusu Ayərbaycandan getməz
87
Dərdin kökünü gizlədən xəstədir
Sözüm dil haqqı istəyən dostadır
Davamız milli iqtisad üstədir
İstiqlal milli iqtisad üçündür
Bağımlı edən federalist çirkindir
88
Federalist, Türkün gədə-güdəsidir
Talaq haqqı verməyən xudasıdır

[1] İranda azlıq Erməni qədər türk millətinin haqqı verilmir

Alacağı haqq "cənnət" vədəsidir
Hər millətin gədəsı güdəsi var
Talaq haqqı istəyən deməz yalvar
89
Yalvarıb yaxarmaq Türkə ölümdür
Qeyrət öldürmək ən böyük zülümdür
Zalıma qarşı savaşan elimdir
Türkü Türk edən türkçü qeyrətidir
Qeyrətindən doğan cəsarətidir
90
Türk soylu tacir necə soydaşdı ki?
Deyir "qurbət el"dir Naxçivan Bakı
Fars millətinin də "yurdu"dur Makı
Özgəni namusunauna ortaq edən
Qovulmalıdır ki, qurtula vətən
91
İrançı Türk federalist olub ki
İrandan <u>ayrıla bilməyə</u> Makı
<u>Bütövləşməyə</u> Tərbiz ilə Bakı
İstiqlal uğrunda savaşan eldir
Türkçü ilə turançı edən ana dildir
92
Otay ayrıldı butaya qovuşa
Ayrılığın ömrü çox tez sovuşa
Doğma xalqım qaynayıban-qarışa
Satqın, düşmənin sazına oynayar
İrançının qazanında qaynayar

93
Türkü satan Türkün ağsaqqalıdır (Liderlər)
Torpaq ağası ilə “baqqal”ıdır (Tacir sinifi)
Həm də beynini yuyan naqqalıdır (Aydınları)
Yuyulan beyini satarlar yada
Ki satqin hər nazı niməti dada
94
Bugünkü federalistin yarını var
İstiqlalçı Türk ilə sorunu var
Adam ətindən doymaz qarını var
Bugünkü federalist qatil olacaq
Çünkü istiqlal savaşa dalacaq
95
Federalizm problemi çözə bilməz
Çözülməyən dərdə xalq dözə bilməz
İstiqlal haqqından əl üzə bilməz
Gəlin bu başda probemi çözək!
Yirmi səkkiz Mayın peşində gəzək!
96
Gəlin Türk öldürən yolu seçməyin!
Cəhlin ölçüsüylə ölçüb-biçməyin!
Asılı edən yola and içməyin!
Gəlin keçmişdən ibrət dərsi alaq
Düşüncələrə bağımsızlığı salaq
97
Ay qoca, qartal Tərbizim, başa sal!
Xalqı biliklǝndirən savaşa dal!
Güney Azərbaycan istiqlalını al!

İstiqlalı olan ölkə çapılmaz
Çapılan ölkədə iş də tapılmaz
98
Elimin aydını aydın deyildir
Ürətilmiş bilik Türkün deyildir
İstiqlaçılıq ona din deyildir
İstiqlalçılıq Türkün dini olsa
Talaq taleyini taməşərmaz Farsa Rusa
99
Farsistan istər Turanı sömürə
Türkü Farsa satan sümük gəmirə
Son qoyulmalıdır böylə ömürə
Farsistan Türkü üçün dil lazımdır
Azərbaycana istiqlal lazımdır
100
Bağımsızlıq fəda olmaz etnikə[1]
Stratejimiz satılmaz taktikə
Bağımsızlıq lazımdır yerli Türkə
Köçmən Türk etnikinə dil lazımdır
Arxasında bağımsız el lazımdır[2]
101
Federalist Türk üçün dil bəhanədir  (yemdir)
Çünkü türkçülük ilə biganədir

---

[1] *Farsistan Türkünə.*

[2] *Müstəqil Azərbaycan.*

Sanma ki, federalist Türk divanədir
Dil bəhanədir ki, xalqı ovlaya
Göndərə irançi edən mövlaya
102
Bağımsızlığın içində dil də var
Yazqısını özü yazan el də var
Bütövləşəcək Xoy ilə Meyil də var
Əlbəttə "Haqq verilməz ki, alınar"[1]
Yoxsa haqqın da halvası çalınar
103
İstiqlalın içində doğma el var
Bütövləşəcək vətən ilə ... dil var
Milli iqtisad ilə milli pul var
İstiqlal qurtarar Türk millətini
Ki bütövləşdirə məmləkətini
104
Milli dövlətini qura bilən Türk
Deyir irançı edən türkdən hürk
Deyər düşmənsevər edən Türkdən ürk
Taylara bölmüş orta duvarı sök
Özgəni at ki, özün ilə birləş
Öz xalqın, öz sinfin içində yerləş

[1] Federalizm verilər, istiqlal alınar.

105
Taylarımız bir-birinin özüdür
Bütövləşmək ürəyinin sözüdür
Ürək yandırmayan qoyun-quzudur
Bütövləşməyən hər varlıq dağılar
Bütövlüyün düşmənidir yağılar
106
Federalist Türk düşünməz ... Borçalıya,
Bənzədər İranı bütöv xalıya
Köləlik edər işqalçı zalıya
Federalist Türk irançının quludur
Getdiyi yol işqalçının yoludur
107
Ziya[1] bəy otayı yurdu bilməyir
Bu səbəbdən göz yaşını silməyir
Dərdinə yandığı üçün gülməlidir
Ziya bəyin ancaq ürəyi yanır
Otayın vətən olduğunu danır
108
Müftə qanın var isə durma, büyür!
Yoxsa qılıncını qınından siyir!
Bağımsızlıq üçün düşməni devir!
Birləşdir ki, gücümüzü artıraq,
Birlikdə ölək, birlikdə qurtulaq.

---

[1] Dr. Ziya Sədroləşrafi

109
Hər nəsil bir səfər inqilab edər
Başarılı olmasa olar hədər
Başqa nəsil onun yolunu gedər
Qurban olacaqsan ol istiqlala
Federalizmin qurbanı olma bala
110
Savaşın hədəfi federalizm olsa
Müqəddəs sayılmalıdır ulusa
Alçağı təcavüz edər namusa Sözünün üstündə dur!
Əkib-doğanın borcu böyütməkdir
Tutduğu yolu sapmadan getməkdir
111
Satqın Türk deyir İranda qalalım
Ordudan yoxsun "milli haqq" alalım
Əhdə vəfa edib yola salalım
Əhdi "pozan" nəsil yetişdirəlim
İstiqlal almağı gecikdirəlim
112
Federal ordu bölücü qorumaz
Mərkəzdəki dövlətdən hesab sormaz
Naxırçı(-millәti -dövləti) vurmaz
Bölücü istəsə istiqlal ala
Savaşmalıdır ki, qələbə çala
113
Milli gəlir ölkədə qalmaq üçün
Qoruyucu ordusu olmaq üçün
Sömürgəçini yurddan qovmaq üçün

Azərbaycana istiqlal gərəkir
Federalist köləlik toxumu əkir
114
Həm otay, həm butay Azərbaycandır
İkiyə bölünmüş vahid bir candır
Fars həm biganədir, həm də düşmandır
Federalist öz elinə üz çevirər
Bacarsa istiqlalçını devirər
115
Azərbaycan ayrılıb dövlət qursa
Minlər fabrika qurdurar ulusa
Necə ki, Farsistan qurdurur Farsa
Xalqımız şad olar, yurdumuz abad
Bütövləşsə Qarabağ olar azad
116
Türkün həm fikir, həm də qol gücü var
İnkişaf etdirməyə bol gücü var
Demokratizə edən sol gücü var
Azərbaycan ayrılsa “cənnət” olar
İranda qalsa gündən günə solar
117
Otay milli istiqlalımı aldı
Butay sevincindən qol-qanad çaldı
Bütövləşmək üçün savaşa daldı
Otay-butay şaqqalanmış bədəndir
Türkə bütöv Azərbaycan vətəndir

118
Farsın dadına çatmaq hünər deyil
İstiqlal haqqını satmaq hünər deyil
Böyük günaha batmaq hünər deyil
Federalizmi ifşa etmək hünərdir
Milli istiqlala yetmək hünərdir
119
Hər savaşın bəlli bir hədəfi var
Hər hədəfin də bəlli bir səfi var
Hər səfin də sağçı-solçu teyfi var
Federalistin yeri düşmən səfidir
Düşməni gücləndirmək hədəfidir
120
Kim istər ki, yurdu sömürgə qala?
Bütövləşməyə, iki ölkə qala?
Biri müstəqil, biri bölgə qala?
Hər kəs istər yurdu bağımsız ola
Federalist qoymaz dərdə çarə bula
121
Kim istər ki, özünə qəbir qaza?
Yazdığını sevməyən özgə poza?
Yazqısını milli düşməni yaza?
Federalist sınanmışları sınayar
Təcrübədən öyrənəni qınayar
122
Kim istər ki, gələcəkdə qınana?
Pisin yaxşı olduğuna inana?
Pisə yaxşı olmaq üçün sınana?

Federalist “qurtarar” bütöv İranı
Ki Farsistan çapa Azərbaycanı
123
Kim istər ki, haramı halal edə?
Çapqınçı Fars millətinə mal edə?
Halallaşdırmaq üçün federal edə?
Federalist çapılmış mala göz yumar
Tacirə imtiyaz almağa cumar
124
Kim istər ki, öz yurdunu çapdıra?
Çapılmaq üçün yolundan sapdıra?
İstiqlalı federalizmə qapdıra?
Federalist istər ki, İranda qala
İradə yox, idarə haqqı ala
125
Kim istər ki, iradəsiz yaşıya?
Federalizm qəşovu ilə qaşıya?
Özgənin iradəsini daşıya?
Federalist istər ki, xaltası ola
Özgələrə yemək salçası ola
126
Kim istər ki, güclü ilə yarışa?
Haqqını almadan öncə barışa?
Özünü qoyub, özgəyə qarışa?
Federalist bilir çapılmış batıbdır
Milli güc sərmayələrdə yatıbdır

127
Kim istər ki, milli ağlını sata?
Özünü özgə naxırına qata?
Çapılan milli iqtisadı bata?
Federalist istər ki, düşmən şad ola
Milli yazgısını yazan yad ola
128
Kim istər ki, muradına yetməyə?
Yurdunu bağımsız ölkə etməyə?
Yəmənin getdiyi yolu getməyə?
Federalist istər ki, düşmən şad ola
Taylarımız bir-birinə yad ola
129
Kim istərki çətinliklərdən qorxa?
Qoruyucu qeyrəti yoxa çıxa?
Öz əliylə başını dərdə soxa?
Federalist qandan qorxudar yıldırar
Düşməni devirməz, hakim qıldırar
130
Kim istər ki, Arazı boykot edə?
Milli düşmənlərin yolunu gedə?
Düşmən təkin verə içiboş vədə?
Federalist istər ki, xalqı uyuda
Özünü görər qazdığı quyuda.
131
Özünə gəl ki, manqurta yol göstər
Ki özgədən asılı olmaq istər
Üz vermə ki, istəyə bilə astar

Federalistin manqurtluğu gizlidir
Gizlərini gizlədən min üzlüdür
132
Özünə gəl ki, bağımsız olasan
Asılı edəni yanlış bulasan
Manqurtçuluğu kökündən yolasan
İstiqlalın məhsulu ədalətdir
Azadlıq ilə sərbəst qəzavətdir
133
Özünə gəl ki, soyuna bel bağla
Doğranmış Babəkin halına ağla
Qatilin ürəyini sən də dağla
Türk nəsilini Türk soylu qoruyub
Soyuna üz çevirən Türk çürüyüb
134
Özünə gəl ki, özgələri tanı
Eyni olsaydı millətlərin qanı
İşqal etməzdilər Azərbaycanı
Türkü birləşdirən tökülən qandır
Tökülmüş qanın məhsulu Turandır
135
Özünə gəl ki, öz dilini qoru
Yaradan yaşadan elini qoru
Bağındakı əkdiyi gülü qoru
Namuslu olmağı Farsdan öyrənin
Farsın işqalçılığından iyrənin

136
Özünə gəl ki, öz tütəyini çal
İdarə haqqı yox ki, istiqlal al
Ancaq istiqlal üçün savaşa dal
Ərəbə Farsa yox ki, Türkə yaraş
Babək təkin istiqlal üçün savaş
137
Özünə gəl ki, öz dərdinə yara
Düşmənsevər Türk təkin vurma yara
Biganə olma otaydakı yara
Yar yolunda hər kəs canından keçər
Canına yox ki, yarına and içər
138
Özünə gəl ki, Bakın ağlamaya
Tərbizə qovuşa ki, dığlamaya
Dığladan satqına bel bağlamaya
İrançı Bakıya, Xoya biganədir
Deyir bütövləşməsi əfsanədir
139
Özünə gəl ki, unutma özünü
Otaydakı yolda qalan gözünü
Gərçəkləşdir Elçibəyin sözünü
Sən bölmədin ki, düşmən böldü yurdu
Ki bütövləşdirə xalqın bozqurdu
140
Köləliyin kökünü qazmalıyıq
Özgə yazan yazqını pozmalıyıq
Yazqımızı özümüz yazmalıyıq

Özgəyə umud olan şamsız qalar
Yetmiş ildən sonra haqqını alar
141
Başını kəklik təkin gömmə qara
Satqınları ayda yox, yerdə ara
Satqını bənzətmə səhvli yara
Bugünkü satqınları bu gün tanıt
Yoxsa öyrətmən olduğunu unut!

20.01.2012 Baltacı Araz

Kim verər dış pulıtıkanı farsa?[1]
kım verər orduyla bankanı farsa?[2]
Kim verər yatırım halkanı farsa?[3]
Kim satar əməniyət halkanı farsa?[4]
Bu milli haqları özəgəyə verən
Milli düşəmən deyylsə, nədir ərən

"Xarici siyasət, pul siyasəti, makroiqtisadi planlaşdırma,
Xarici təcavüzə qarşı müdafiə siyasəti [və "çeçen" xalqının sıxışdırılması. Araz],
Ətraf mühitin mühafizəsi siyasəti... [və təhlükəsizlik məsələləri və senzura. Araz] İranın federal hökumətinin [yəni Fars millətinin əyalət hökumətinin] məsuliyyəti sahəsində. Araz] olacaq.
... Çünki yuxarıda adı çəkilən əyalət hökumətlərinin siyasi gücü kəmiyyət və keyfiyyət səbəblərinə görə fars millətinin əyalət hökuməti ilə düşmənçilik etmək üçün kifayət edə bilməz.
Odur ki, adı çəkilən xalqlara münasibətdə zorakılıq baş verərsə, onun güclü hissəsindən, yəni üstün gücə malik olan Fars əyalət hökumətindən gündəmə gələ bilər, əksi mümkün deyil. Younes Şamili

---

[1] Xarici siasəti

[2] Ordu ilə Bankanı

[3] Bərnamə rızı hay kəlan əqtsadı

[4] Təcavüzə qarşı müdafiə siyasəti

Arazizm

tam bilimsəl bir məktəbdir

Bağımsızlığa düşünsəl səbəbdir

Uygulayanı

bilimsəl qəzəbdir

Ən çətin problemləri çözübdür

Cahil insan ona dodaq büzübdür



Fars min ildən bəri fikir yürüdür
Türkləri fars qazanında ərıdir

Türk də axar çaylarını qurudur
Bununla da türkəlüyünü unudur

Fars türkü boykot edir ki, azmaya
Türk, türkü boykot edir ki yazmaya

Araz məkətəbi birləşdirər türkləri
Çünkü bilimsələşədirir dərkləri

Buraxmayın suon anadk səngəri
Yo�xsa gerçəkəlşəməyəcək ərkləri

Düşüncə tərzi dəyişmədən öncə
Şaxtaya uğrayar bağdakı qönçə